ədalət.- 2021.- 31 dekabr.- S.3.

# Quran–i Kərimin ən mükəmməl tərcüməçisi

## NƏRİMAN QASIMOĞLUNUN 65 YAŞI TAMAM OLDU

**Şair, tərcüməçi, şərqşünas-alim Nəriman Qasımoğlunun ad günüdür. Nəriman müəllim şair, tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, filologiya elmləri doktoru Qasım Qasımzadənin oğludur.**

Nəriman Qasımoğlu 1956-cı il dekabrın 26-da Bakıda doğulmuşdur. Hüseyn Cavid adına 132 saylı Bakı şəhər orta məktəbini qızıl medalla (1973), Bakı Dövlət Universitinin (BDU) şərqşünaslıq fakültəsini fərqlənmə diplomu (1979) ilə bitirmişdir. Yəməndə (1977-1978) və Liviyada (1980-1982) ərəb dili üzrə mütərcim, BDU-da müəllim (1979-1980), Azərbaycan Dövlət Teleradiosunun xarici verilişlər redaksiyasında ərəb dili üzrə diktor (1979-1980), Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda elmi işçi (1983-1989), SSRİ EA Şərqşünaslıq İnstitutunda təcrübəçi (1984-1986), Azərbaycan Yazıçılar Birliyi Tərcümə Mərkəzində şöbə müdiri (1989-1992) vəzifələrində, ABŞ-ın Corctaun Universiteti (2003-2004), Macarıstanın Mərkəzi Avropa Universitetində (2006-2007), ABŞ-ın Kaliforniya Dövlət Univerisiteti (2009)və Harvard Universitetində (2012-2013) elmi araşdırmaçı qismində çalışmışdır. Hazırda ADA Universitetinin professorudur. Nəriman Qasımoğlu atasının yadigarı kimi maarifçiliyin, Azərbaycan təhsilinin inkişafında çox böyük işlər görmüşdür. O, Qasım müəllimin davamçısı kimi özünü doğrultmuşdur: yüksək mədəniyyətə, savada və dünyagörüşünə sahib olan bir şəxsiyyətdir.



Quran-i Kərimin Azərbaycan dilinə bədii tərcüməsinin müəllifidir.

Nəriman Qasımoğlu Frederik Starın məşhur "İtirilmiş maarif, Mərkəzi Asiyanın qızıl dövrü Ərəb İstilasından Teymurləngədək"kitabını (767 səhifə) ingilis dilindən Azərbaycan dilinə tərcümə etmişdir.

Onun "OXU - Quran açıqlaması" kitabı sözün əsl mənasında möhtəşəmdir.

**Dostuma uzun ömür, yaradıcılığında uğurlar və sağlam həyat sürməyi arzulayıram.**

**Etibar Əliyev**